**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№ 265/1** **11 avqust 2015-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin yeni sədrinin təyin edilməsi barədə**

Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri İ.Bayramovun tutduğu vəzifədən azad edilməsi barədə 2015-ci il 13 iyul tarixli ərizəsinə baxaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR**

**1.** Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri İ.Bayramovun ərizəsi nəzərə alınaraq tutduğu vəzifədən azad edilsin.

**2.** Sərbəst auditor Əliyev Elçin Məmmədəli oğlu Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri vəzifəsinə təyin edilsin.

**3.** İ.Bayramova tapşırılsın ki, Palata Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin fəaliyyəti ilə bağlı olan sənəd və materialları müvafiq qaydada təhvil-qəbul aktı ilə Komitənin sədri E.Əliyevə təhvil versin.

**4.** Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri E.Əliyevə tapşırılsın ki, Palata Şurası tərəfindən təsdiq edilmiş 2015-ci il üzrə qrafikə əsasən yoxlamaların həyata keçirilməsi üçün əməli tədbirlər görsün və Komitənin işini canlandırmaq məqsədilə təkliflər hazırlayıb təqdim etsin.

**5.** Bu qərarın icrasına nəzarət Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova həvalə edilsin.

**6.** Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**